# Qiyamət gününün sürətlə yaxınlaşdığını əsla unutmayın

**Camaat səndən o saat (qiyamətin nə vaxt qopacağı) barədə soruşar. De: “Onu ancaq Allah bilər!” Nə bilirsən, bəlkə də, o saat (qiyamət) yaxındır). (Əhzab surəsi,63)**

• Qiyamət saatına hər an bir az daha yaxınlaşdığımızı,

• O gün indiyə kimi heç görünməmiş və eşidilməmiş hadisələrin baş verəcəyini,

• Hiç kim şüurunda deyilkən anidən gələcəyini,

• Heç bir yerə qaçışın olmayacağını,

• O gün hər kəsin Allaha hesab verəcəyini, verilən hər nemətdən sorğuya çəkiləcəyini,

• Bu günə kimi yaradılmış bütün insanların olduqları yerdən qalxıb Rəbbimizə tərəf süzülərək gedəcəklərini,

• O gün yer üzünün və dağların yerindən oynadılıb parça-parça olacağını,

• Göyün yarılıb çatlayacağını,

• Ulduzların örtülüb, silinəcəyini,

• Dağların kökündən qoparılacağını,

• Dağların yeridilib, bir sərab halına gələcəyini,

• Toz duman halında dağılıb sovrulacağını,

• Göyün ərimiş filiz kimi olacağını,

• Dağların ətrafa uçuşmuş rəngarəng yun kimi olacağını,

• Yerlərinin bomboş qalacağını,

• Əmizdirən qadınların uşaqlarını tərk edəcək qədər qorxulu gün olacağını,

• Tək-tənha Rəbbimizin dərgahına çıxacağımızı,

• O gün Allahın dilədiklərindən başqa göydə və yerdə olan hər kəsin qorxuya qapılacağını,

• Günahkarların simalarından tanınıb, alınlarından və ayaqlarından yaxalanacağını,

• Allahın izin verdiklərindən başqa heç kimin danışa bilməyəcəyini,

• İnanmayanların o gün bədbəxt olacaqlarını,

• O gün Allaha qarşı yalan söyləyənlərin üzlərinin qapqara olacağını,

• Rəhmana qarşı bütün səslərin qısılacağını, xırıltıdan başqa bir şeyin eşidilməyəcəyini,

• Heç bir yaxın dostun bir yaxın dostu soruşa bilməyəcəyini -anası, atası, qardaşı da daxil olmaqla-,

• O gün günahkarların bir-birlərini təqsirləndirəcəklərini,

• Hər kəsin etdiyi yaxşılıqların yanında olacağını, pisliklərlə arasında uzaq məsafə olmasını istəyəcəyini,

• Kafir olanların üzlərindən tanınacaqlarını,

• Alınlarından və ayaqlarından yaxalanacaqlarını,

• Möminlərin üzlərinin aydınlıq olacağını, gülər üzlü və sevinc içində olacaqlarını,

• Hesab günündəki son peşmançılığın fayda verməyəcəyini,

• Heç bir şey üçün geri dönüşün əsla olmayacağını,

• Təkcə səmimi möminlər üçün qorxu və kədər olmayacağını **ƏSLA UNUTMAYIN.**

https://www.harunyahya.info/az/meqaleler/qiyamet-gununun-suretle-yaxinlasdigini-esla-unutmayin